

# Qarabağ yeni intibah dövrünə qədəm qoyur

***Azərbaycan İkinci Qarabağ savaşında böyük əzmkarlıq, iradə, rəşadət göstərdi, müzəffər ordumuz parlaq qələbə əldə etdi. Müharibədə qardaş Türkiyə Azərbaycanı tək buraxmadı, 44 gün ərzində siyasi və mənəvi dəstəyini əsirgəmədi.***

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində fevralın 23-də TASS agentliyində bu ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşündə də bu barədə ətraflı bəhs edib. Dövlətimizin başçısı Türkiyənin Azərbaycana İkinci Qarabağ müharibəsinin elə ilk günlərindən siyasi və mənəvi dəstək göstərdiyini, bununla da bəzi dövlətlərdəki bir sıra dairələrin respublikamıza münasibətdə düşməncəsinə hərəkətlərin birmənalı şəkildə qarşısını aldığını bildirib. Ölkə rəhbəri Vətən savaşından sonra isə Türkiyə şirkətlərinin Qarabağ və Şərqi Zəngəzurun bərpasında fəal iştirak etdiklərini diqqətə çatdırıb.

**(ardı 5-ci səhifədə)**

# Qarabağ yeni intibah dövrünə qədəm qoyur




**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev daha sonra deyib: “Biz bütün bərpa işlərini yalnız öz vəsaitimiz hesabına görürük, biz heç kimdən nə kredit qismində, nə də hansısa müftə kömək kimi bir manat, rubl və ya dollar almamışıq. Biz hər şeyi öz hesabımıza edirik, lakin podratçı kimi Türkiyə şirkətlərindən çox fəal istifadə edirik…”.

Dövlətimizin başçısı görüşdə, həmçinin Qarabağın bərpası zamanı yaranan çətinliyin əsasən bu ərazinin başdan-başa minalanması ilə bağlı olduğunu, müharibənin qurtarmasından keçən bir il üç ay ərzində minaların partlaması nəticəsində ölənlərin və əlil olanların sayının 200 nəfəri keçdiyini deyib.

Ölkə rəhbərinin vurğuladığı kimi, bu məsələdə ilk günlərdən Rusiya Prezidenti Vladimir Putinin çağırışlarına baxmayaraq, baş nazir Paşinyan onlarda mina xəritələrinin olmaması barədə inadla danışırdı. Əlbəttə bu, doğru deyildi. Lakin bir müddət sonra erməni tərəf mina xəritələrinin mövcudluğunu etiraf etdi və həmin xəritələrin müəyyən hissəsini Azərbaycana verdi. Amma bu zaman onların dəqiqliyinin 25 faiz olduğu üzə çıxdı.

Bax, belə bir ciddi problem səbəbindən hazırda Qarabağda məskunlaşma gecikir, bərpa işlərinin sürəti azalır. Buna baxmayaraq, Azərbaycan hazırda pilot layihələrin icrasını davam etdirir. Ölkəmiz Qarabağ və Şərqi Zəngəzur erməni faşizminin qurbanına çevrilsə də, yerləyeksan olsa da, Vətən müharibəsinin ilk günlərindən etibarən bu ərazilərdə həyatın yenidən canlanması üçün genişmiqyaslı tikinti, bərpa-quruculuq tədbirləri gerçəkləşdirir, infrastruktursu, işıq, qaz, yol məsələlərini həll edir.

Hazırda düşməndən təmizlənən torpaqlarda dövlət büdcəsindən ayrılan böyük vəsait hesabına pilot layihələr plan üzrə uğurla reallaşdırılır. “Yaşıl enerji” prinsipi əsas götürülərək, Qarabağ və Şərqi Zəngəzurda “yaşıl enerji” zonaları yaradılır, “Ağıllı şəhərlər”, “Ağıllı kəndlər” salınır.

Bir neçə aydan sonra isə Böyük qayıdışın Zəngilan rayonunda həyata keçiriləcəyi nəzərdə tutulur. Dövlətimizin başçısı TASS agentliyində keçirilən görüşdə bu barədə bildirib: “İlk olaraq, təqribən 200 ailə artıq bu ilin yazında oraya qayıdacaq. Sadəcə, müqayisə üçün deyim ki, biz Livanın ərazisinə bərabər ərazini bərpa etməliyik. Həmin ərazidə heç nə yoxdur, yəni, sözün əsl mənasında, hər şey dağıdılıb. Ağdam şəhərində 30-40 min insan yaşayırdı, orada xarabalıqdan başqa heç nə yoxdur. Daşları daşıyıb aparıb, satıblar. Başdaşılarını sındırıb, aparıb və satıblar. Yəni, misli görünməmiş, ağlasığmayan miqyasda vandallıq. Bütün bunlar beynəlxalq ictimaiyyətdən gizlədilib. Əfsuslar olsun ki, işğal altında olan ərazilərə dəfələrlə səfər edən ATƏT-in Minsk qrupu bunu görməməyi üstün tutub”.

Böyük qayıdışın ilk olaraq həyata keçiriləcəyi Zəngilan rayonunun Ağalı kəndində “Ağıllı kənd” layihəsi çərçivəsində görülən işlər Qarabağın sürətli inkişafının parlaq ifadəsidir. Bu, bölgənin yaxın gələcəkdə dünyada “Ağıllı diyar” kimi tanınacağına əminlik yaradır.

“Ağıllı kənd”də aqrar sahənin inkişafı prioritet vəzifə kimi qarşıya qoyulub. Elə buna görə də artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. Burada müasir suvarma sistemlərindən istifadə olunacağı da qərarlaşdırılıb.



Zəngilan rayonunda “Dost Aqropark”ın yaradılması da mühüm tarixi hadisədir. Aqroparkdakı otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətləin həyata keçiriləcəyi nəzərdə tutulur.

Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı avadanlığına tələbatını ödəyəcək. “Dost Aqropark”da “Ağıllı kənd təsərrüfatı” texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulacaq. Aqropark tam işə düşdükdən sonra burada 500 nəfərə iş imkanı yaradılacaq.

Azərbaycan dövləti bu gün Qarabağda ərazilərin bərpası və yenidən qurulması ilə bağlı layihələrin reallaşdırılmasını xüsusi diqqət mərkəzində saxlayır. Prezident İlham Əliyev tərəfindən hazırda erməni barbarlığının qurbanı olan yaşayış sahələrində mühüm strateji obyektlərin, müəssisələrin təməli qoyulur, tikinti işləri geniş vüsət alır, yüksək texnologiyaların tətbiqinə start verilir, Qarabağ bölgəsinin “yaşıl enerji” zonasına çevrilməsi istiqamətində önəmli tədbirlər gerçəkləşdirilir. Bu tikinti-quruculuq işlərinin böyük bir hissəsi isə qardaş Türkiyənin dəstəyi ilə icra olunur.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri çərçivəsində Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlinin qoyulması, eyni zamanda, dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olmaları Vətən müharibəsindən sonra Azərbaycanla yanaşı, qardaş Türkiyənin də bu bölgənin inkişafına xüsusi önəm verməsini təsdiqləyir.

Xatırladaq ki, uzunluğu 81 kilometr nəzərdə tutulan Əhmədbəyli-Füzuli-Şuşa yolu altı-dörd cərgədən ibarət olacaq. Magistralın başlanğıcdan 51 kilometrlik hissəsi Azərbaycan şirkətləri, əllinci kilometrdən 81-ci kilometrə qədər hissəsi isə Türkiyənin “Kolin İnşaat” və “Çingiz İnşaat” şirkətləri tərəfindən çəkilir. Türkiyə şirkətlərinin fəaliyyət göstərdiyi hissədə 6 kilometr uzunluğunda tunel tikilir və 7 yol ötürücüsünün isə inşası nəzərdə tutulur. Tunellərin ümumi uzunluğu 6500 metrdir.

Şuşa şəhərinin girişində olan biri 431 metr, digəri isə 530 metr uzunluğunda olan 4-cü və 5-ci tunellər artıq tikilib.

Azərbaycanda Toğanalı-Kəlbəcər yolunda ən böyük-11 min 600 metrlik Murovdağ tunelini də “Çingiz İnşaat” inşa edir. Bundan başqa Qorçu aeroportunun 3,5 kilometrliyində Laçın-Kəlbəcər tuneli də var.

Ümumiyyətlə, Azərbaycanın Qarabağ bölgəsində Türkiyə şirkətləri tərəfindən 62 kilometr uzunluqda tunel tikilir. Bu gün Türkiyə şirkətlərində 6587 işçi çalışır. Onların 1832 nəfəri Türkiyə vətəndaşı, 4500 nəfəri isə Azərbaycan vətəndaşıdır. Bir sözlə, Qarabağda fəaliyyət göstərən şirkətlərdə 13 min 280 nəfər işləyir.

Onu da qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri çərçivəsində təməli qoyulan Zəngəzur dəhlizi magistralını da qardaş ölkənin “Kalyon” şirkəti tikir.

Göründüyü kimi, artıq bölgədə yeni nəqliyyat və infrastruktur xəritəsinin formalaşmasına başlanılıb. Təsadüfi deyil ki, Azərbaycan müstəqillik əldə etdikdən indiyədək Asiya və Avropanı birləşdirən yüksək əhəmiyyətli nəqliyyat dəhlizləri yaradıb. Məhz ölkəmizin təşəbbüsü ilə reallaşdırılan Şimal-Cənub, Şərq-Qərb və Cənub-Şimal nəqliyyat dəhlizləri qitələrarası daşınmaların həyata keçirilməsini gerçəkləşdirib. Bu nəqliyyat dəhlizləri istifadəyə verildiyi vaxtdan tarixi İpək yolunun bərpasında mühüm önəm daşıyıb.

Bütün bunlar deməyə əsas verir ki, Zəngəzur dəhlizinin reallaşması və ölkəmizin təqdim etdiyi digər tranzit nəqliyyat dəhlizləri dünyanın nəqliyyat xəritəsini yenidən formalaşdıracaq. Başqa sözlə, yeni yaranacaq nəqliyyat infrastrukturu beynəlxalq status qazanmaqla Asiya və Sakit okean hövzəsi ölkələrinin də istifadə edə biləcəyi marşuruta çevriləcək.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri çərçivəsində qardaş ölkə rəhbərləri tərəfindən Zəngəzur dəhlizinin təməlinin qoyulması da təsadüfi deyil. Bu barədə dövlətimizin başçısı çıxışlarının birində deyib: “Zəngəzur dəhlizinin açılması İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanan “Şuşa Bəyannaməsi”ndə də bu məsələnin əks olunması böyük məna daşıyır”.

Ötən il işğaldan azad olunmuş ərazilərdə 13 enerji obyekti tikilib və yenidən qurulub. Prezident İlham Əliyevin iştirakı ilə Laçındakı “Güləbird” SES, “Suqovuşan-1” və “Suqovuşan-2” kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra açılışları olub, “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyasında işlər tamamlanıb. Azad olunmuş ərazilərdə 110/35/10 kilovoltluq 9 rəqəmsal yarımstansiya tikilib. Ötən il mayın 12-də “Şuşa”, iyunun 14-də “Füzuli” və “Şükürbəyli”, avqustun 16-da “Kəlbəcər”, oktyabrın 4-də “Cəbrayıl”, oktyabrın 20-də “Zəngilan”, oktyabrın 25-də isə “Qubadlı” yarımstansiyalarının dövlətimizin başçısının iştirakı ilə açılışı olub. Ağdam rayonunda iki yerdə inşa edilən 110/35/10 kilovoltluq “Ağdam-1”, “Ağdam-2” yarımstansiyalarının, o cümlədən, “Qarabağ” Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi yekunlaşıb.

Qarabağ və Şərqi Zəngəzurda tikilən 9 yarımstansiyanın hamısı Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, tam rəqəmsallaşdırılıb. Belə ki, dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem konsepsiyası həyata keçirilib və müasir, dayanıqlı, rəqəmsallaşdırılmış yarımstansiyalar modeli formalaşdırılıb. İstismara verilən yarımstansiyalarda proseslərin, resursların idarə edilməsi, açılıb qoşulma əməliyyatları, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması proqram təminatı vasitəsi ilə avtomatik həyata keçirilir.

Azad olunmuş ərazilərdə ümumi uzunluğu 365 kilometr məsafədə iki dövrəli olmaqla 10 istiqamətdə yüksək gərginlikli 110 kilovoltluq elektrik verilişi xətti çəkilib.

**Vaqif BAYRAMOV, “Xalq qəzeti”**